1 M.

S

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**
**və**
**İran İslam Respublikasının Statistika Mərkəzi**
**arasında**
**statistika sahəsində əməkdaşlığa dair**
**Anlaşma Memorandumu**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi, statistika sahəsində əməkdaşlığa dair aşağıdakılar barədə razılığa gəldilər:

I. Tərəflər məlumatların konfidensiallığını və dövlət sirrini təşkil edən informasiyaların qorunmasını təmin etməklə hər iki ölkədə statistikanın inkişafı üçün texniki əməkdaşlığın inkişaf etdirilməsini aşağıdakı vasitələrlə təşviq edəcəklər:

- İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə uçot və sorğuların, araşdırmaların və siyahıyaalmaların inzibati məlumat sisteminin yaradılması və istifadə edilməsi üzrə metodoloji materialların və işlərin mübadiləsi;
- statistikanın, xüsusən ətraf mühit, enerji və İnformasiya texnologiyaları statistikasının təkmilləşdirilməsi, həmçinin milli hesablar sisteminin təşkili və tətbiqi məsələləri üzrə təcrübə mübadiləsi;
- statistik nəşrlərin (dövlətlərin və ya onların ayrı-ayrı regionlarının sosial-iqtisadi vəziyyətindəki dəyişikliklərlə bağlı illik məcmuələrin, cib kitabçalarının, bülletenlərin, məlumatların) mübadiləsi;
- milli statistika xidmətlərinin mütəxəssisləri üçün birgə seminarların və digər ümumi tədbirlərin təşkili;
- sosial və iqtisadi vəziyyəti əks etdirən statistik məlumatların mübadiləsi;
- müqayisəli göstəricilərin təmin olunması.

II. Tərəflər ekspert qruplarının və tədqiqatçıların mübadiləsini və 1-ci bənddə göstərilmiş əməkdaşlıq istiqamətləri çərçivəsində qısa müddətli təlim kurslarının keçirilməsini dəstəkləyəcəklər.

III. Tərəflər təlim kurslarının keçirilməsindən əvvəl təlim kursunun mövzusu, tarixi, yeri və müddəti barədə razılığa gələcəklər.

IV. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşlığın birinci ili üçün öhdəliklərinə aşağıdakılar daxildir:

a) Azərbaycanın statistika sisteminin strukturu, qayda və qanunları, təşkilatı imkanları ilə İran missiyasını tanış etmək;

b) Təsnifatlar, statistik vahidlərin registri, seçmə metodların tətbiqi haqqında məlumat vermək.

V. İran İslam Respublikasının Statistika Mərkəzinin əməkdaşlığın birinci ili üçün öhdəliklərinə aşağıdakılar daxildir:

a) Azərbaycan Respublikası Dövlət Statistika Komitəsini müasir müayinə metodlarına dair məlumatlarla təmin etmək,
b) İranın İslam Respublikasının statistika sisteminin strukturu, qayda və qanunları, təşkilatı imkanları ilə Azərbaycan Respublikasının missiyasını tanış etmək.

VI. Bu Anlaşma Memorandumunun icrasına nəzarət edilməsi və görülmüş işlər barədə hesabatların hazırlanması məqsədilə, hər il növbə ilə Bakı və Tehran şəhərlərində toplaşacaq Birgə Komitə yaradılacaqdır.

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu qeyri-müəyyən müddətə imzalanır. Tərəflərdən hər biri istənilən vaxt bu Anlaşma Memorandumunun qüvvəsinə xitam vermək niyyəti barədə diplomatik kanallarla digər Tərəfə yazılı bildiriş verməklə onu xitam edə bilər. Anlaşma Memorandumu belə bildirişin alındığı tarixdən altı ay sonra xitam olunur.

Bu Anlaşma Memorandumu Tehran şəhərində "10" mart 2009-cu il tarixində, müvafiq olaraq hicri şəmsi tarixi ilə 20 esfand 1387-ci tarixində iki əsl nüsxədə Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **İran İslam Respublikasının Statistika Mərkəzi adından** |
| A. Vəliyev | |